*Akademik Tarih ve Düşünce Dergisi* *Academic Journa lof History and Idea*
***ISSN: 2148-2292***
*10 (2) 2023*
*https://doi.org/10.46868/atdd.2023.*

***Araştırma Makalesi | Research Article***
***Geliş tarihi |Received: 17.09.2023***
***Kabul tarihi |Accepted: 12.10.2023***
***Yayın tarihi |Published: 10.11.2023***

**Mehmanəli Məmmədov**

*https://orcid.org/0000-0002-0195-2375*
*Associate Professor, Doctor of Philosophy, Baku State University, Azerbaijan, m_mehmanali@gmail.com*

***Atıf Künyesi | Citation Info***

Məmmədov, M. (2023). Azərbaycan Respublikası Kitabxanalarında Beynəlxalq Əlaqələrin Yaranması və Formalaşması. *Akademik Tarih ve Düşünce Dergisi, Türkiye-Azerbaycan İlişkilerinin 100. Yılı Özel Sayısı, 10* (2), 464-477.

# Azərbaycan Respublikası Kitabxanalarında Beynəlxalq Əlaqələrin Yaranması və Formalaşması

***Öz***

*Kitabxana işi sahəsində beynəlxalq əməkdaşlıq istənilən dövlətin beynəlxalq əlaqəlrinin ayrılmaz hissəsidir. Tarixən bu proses kitabxanaların yarandığı ilk dövrdən başlayıb, bütövlükdə insan sivilizasiyasının və eyni zamanda dünya kitabxana işinin inkişaf xüsusiyyətlərindən asılı olaraq bir sıra mərlələrdən keşmiçdir. Azərbaycanda sovet tipli kitabxanaların yarandığı gündən kitabxanaların beynəlxalq əlaqələrinə səmərəli bir iş metodu kimi yüksək qiymət verilmişdir. Həmin dövrdə respublikamızda kitabxana işinin mərkəzində duran və bir çox kitabxanaların fəaliyyətinə rəhbərlik edən əsas mərkəz Azərbaycan Dövlət Kitabxanası olmuşdur. Azərbaycan Dövlət kitabxanası yüksək ixtisaslı oxucuların, alimlərin, elmi-tədqiqat müəssisələrinin işçilərinin kitaba xüsusi ilə xarici ədəbiyyata olan tələbatını ödəyə bilmədiyindən xarici ölkə kitabxanaları ilə beynəlxalq kitab mübadiləsinin təşkilinə böyük ehtiyac olunmaqda idi. Kitabxana bu sahədə öz fəaliyyətini genişləndirməyə çalışsa da 20-30-cu illərdə bu işi qaydaya salmaq o qədər də asan olmamışdır. Respublikamızda kitabxanaların beynəlxalq əlaqələrinin qaydaya düşməsi 1950-ci illərdən sonra mümkün olmuşdur. Azərbaycanda bu işlə əsasən M. F. Axundov adına Dövlət Kitabxanası və Azərbaycan Milli Elmlər Akademiyasının elmi kitabxanası məşğul olmuşdur. Məqalə əsasən Milli Kitabxana olmaqla Azərbaycan kitabxanalarının beynəlxalq əlaqələrinin ümumi mənzərəsi və əməkdaşlığın dinamikasını müəyyənləşdirmək məqsədi daşıyır.*

**Açar sözlər:** *Azərbaycan kitabxanaları, beynəlxalq əlaqələr, mədəni əlaqələr, əməkdaşlıq.*

# Creation and Formation of International Relations in the Libraries of the Republic of Azerbaijan

***Abstract***

*International cooperation in the field of library work is an integral part of international relations of any state. Historically, this process started from the first period when libraries were created, and it is different from a number of stages depending on the development characteristics of the human civilization as a whole and at the same time the world library work. Since the establishment of Soviet-style libraries in Azerbaijan, the international relations of libraries have been highly valued as an efficient work method. At that time, the Azerbaijan State Library was the main center of the library work in our republic and led the activities of many libraries. Since the Azerbaijan State Library could not meet the demand of highly qualified readers, scientists, employees of scientific research institutions for books, especially for foreign literature, there was a great need to organize international book exchange with libraries of foreign countries. Although the library tried to expand its activities in this field, it was not so easy to regulate this work in the 20s and 30s. International relations of libraries in our republic became possible after the 1950s. In Azerbaijan, the State Library named after M. F. Akhundov and the scientific library of the Azerbaijan National Academy of Sciences were mainly engaged in this work. The purpose of the article is to determine the general picture of the international relations of Azerbaijani libraries, mainly the National Library, and the dynamics of cooperation.*

***Keywords:*** *Azerbaijani libraries, international relations, cultural relations, cooperation.*

## Giriş

Müstəqil Azərbaycan Respublikasının üzləşdiyi sosial-iqtisadi və siyasi problemlərin müvəffəqiyyətli həlli onun beynəlxalq aləmdəki mövqeyi, ayrı-ayrı ölkələrlə milli dövlət mənafelərinə cavab verən qarşılıqlı faydalı əlaqələrin və dünya birliyinə inteqrasiyası prosesinin intensivliyi ilə sıx bağlıdır. Bu mənada Azərbaycanın beynəlxalq əlaqələr sistemində layiqli yer tutması uçun dünya siyasətinin formalaşmasında aparıcı rol oynayan dövlətlərlə və beynəlxalq təşkilatlarla qarşılıqlı münasibətlərinin tənzimlənməsi və inkişaf etdirilməsi böyuk əhəmiyyət kəsb edir. Hazırda müstəqil Azərbaycan dövlətinin beynəlxalq münasibətlər sistemində yeri, Avropa ölkələri və ABŞ-la, yeni müstəqil dövlətlər və Asiya, Afrika və Cənubi Amerika ilə əlaqələrinin yaxın dövr üçün istiqamətləri, aparıcı strategiyası müəyyənləşdirilmiş, hər qrupa daxil olan ölkələrlə ayrı-ayrılıqda və birgə münasibətlərin düşünülmüş, bütün amilləri nəzərə alan durumu yaradılmışdır. Məhz bu siyasi kursun nəticəsidir ki, Azərbaycan bu gün dünyanın demək olar ki, bütün ölkələri ilə diplomatik münasibətlər qurmuş və əməkdaşlıq edir. Azərbaycan bu gün planetin beynəlxalq əməkdaşlıq regionlarından birinə, bəlkə də ən mühümünə çevrilmişdir.

Azərbaycan Respublikasının xarici siyasət xəttində beynəlxalq təşkilatlarla əməkdaşlığın genişləndirilməsi məsələlərinə də böyük diqqət yetirilir. Hazırda dünyada təxminən 4 mindən çox beynəlxalq və məhəlli təşkilat mövcuddur ki, bunlardan 300-dən çoxu hökumətlərarası təşkilatlardır. Beynəlxalq təşkilatlara üzv olmaq, onların işlərində iştirak etmək, onlarla səmərəli iş qurmaq Azərbaycanın problemlərini, Azərbaycanın həqiqətlərini dünyaya çatdırmaq üçün böyuk əhəmiyyət kəsb edir. Məhz buna görə də Azərbaycan Birləşmiş Millətlər Təşkilatı (BMT), Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı (ATƏT), Avropa Şurası (AŞ), Müstəqil Dövlətlər Birliyi (MDB), Islam Konfransı Təşkilatı (İKT), Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı (QDİƏT), Parlamentlərarası İttifaq (Pİ), İqtisadi Əməkdaşlıq Təşkilatı (İƏT) kimi beynəlxalq təşkilatların üzvü olmaqla bərabər, Avropa Birliyi, NATO, Beynəlxalq Valyuta Fondu və digər təşkilatlarla da fəal əməkdaşlıq edir. Azərbaycan yeni-yeni kollektiv sənədlərə və beynəlxalq müqavilələrə qoşulur. Azərbaycan Respublikasının ardıcıl və məqsədyönlu şəkildə həyata keçirdiyi xarici siyasət kursunun ən mühüm uğurlarının biri də 2001-ci ilin əvvəllərində tarixi əhəmiyyət daşıyan hadisə-Azərbaycanın Avropa Şurasına üzv qəbul edilməsi oldu. Bu mümüm nailliyət Azərbaycana başqa dövlətlərlə müqayisədə ikiqat, bəlkə də daha ağır zəhmət və şərtlər bahasına başa gəldi. Bu gün Azərbaycan özunun coğrafi mövqeyindən, dünya miqyaslı coğrafi-strateji əhəmiyyətə malik olan təbii ehtiyatlarından istifadə əsasında bir çox dövlətlərlə və beynəlxalq qurumlarla əməkdaşlıq edərək Böyuk İpək yolunun bərpası, Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinin inkişafı, Xəzər Hövzəsinin karbohidrogen ehtiyatlarının işlənməsi və dünya bazarlarına çıxarılması layihələrini səmərəli şəkildə həyata keçirir. Yaxın vaxtlarda Zəngəzur dəhlizinin açılışı da bu siyasətin məntiqi davamıdır.

Qeyd etmək lazımdır ki, zəngin yeraltı və yerüstü təbii sərvətləri və iqtisadi potensialı olan Azərbaycanla iqtisadi ticarət əlaqələrinin qurulmasında çox ölkə maraqlıdır. Bu gün Azərbaycanda ABŞ, Böyuk Britaniya, Türkiyə, Almaniya, Fransa, İtaliya, Yaponiya, Rusiya, İsveçrə, Norveç, İran və onların digər ölkələrin yuzlərlə şirkəti fəaliyyət göstərir, energetika, metallurgiya, neft-kimya və kimya sənayesi, rabitə, aqrar sənaye kompleksi müəssisələrinin yenidən qurulmasında və məhsul istehsalında, habelə tikinti kompleksinin işində yaxından iştirak edirlər. Lakin dünya ölkələrinin Azərbaycana olan marağının ən muhum səbəbi neftdir. Azərbaycanın neft strategiyası ölkəyə həm iqtisadi inkişaf üçün əlverişli şərait yaradıb, dünyanın bir çox dövlətləri ilə faydalı əlaqələr qurmağa imkan vermişdir.

Müstəqil Azərbaycan Respublikasının tarixinə qızıl hərflərlə həkk olunmuş 20 sentyabr 1994-cu il bu günkü və gələcək nəsillərin yaddaşında əbədi yaşayacaqdır. Məhz bu tarixdə

möhtəşəm "Gülüstan" sarayında Azərbaycanda Amerikanın "AMOKO", "Yunokal", "Pennzoyl", "Makdermot", Böyük Britaniyanın "Britiş Petroleum" və "Remko", Norveçin "Statoyl", Rusiyanın "Lukoyl", Türkiyənin "Türk petrolları", Səudiyyə Ərəbistanın "Delta" şirkətlərinin yaratdığı konsorsium arasında tarixə "Əsrin müqaviləsi" kimi daxil olan neft müqaviləsi imzalanmışdır. Bu ilk beynəlxalq neft sazişi iqtisadiyyatımızın dinamik inkişafının əsasını qoydu və onun praktik nəticələri indi göz qabağındadır. Ümumiyyətlə, Azərbaycanın neft strategiyası nəinki mühüm sosial-iqtisadi, həm də böyük siyasi əhəmiyyət kəsb edir.

Müstəqillik illərində elm və təhsil sahəsində də beynəlxalq əlaqələr genişlənmişdir. Bu gün dünyanın inkişaf etmiş 40-a yaxın ölkəsində minlərlə azərbaycanlı gənc təhsil alır, təqribən 50 xarici ölkədən isə Azərbaycanın müxtəlif ali məktəblərində 2 mindən çox tələbə magistrant, aspirant təhsil almaqdadır. Bu gün xarici əlaqələr sahəsində əsas strateji məqsəd hər bir ali təhsil müəssisəsinin beynəlxalq fəaliyyət subyektinə çevrilməsinə imkan yaratmaqdan, Avropa İqtisadi Birliyinin, YUNESKO-nun və digər beynəlxalq təşkilatların müxtəlif təhsil proqramları və layihələrində iştirak etməkdən ibarətdir.

Müstəqilliyimizin 32 ili ərzində Azərbaycan öz mədəniyyəti, ədəbiyyatı və incəsənəti, şəxsiyyətləri ilə də dünya meridianlarına çıxmışdır. Dahi Azərbaycan şairi mutəfəkkiri M. Füzulinin 500 illik yubileyinin Fransada, Turkiyədə, İraqda, İranda və Rusiyada, dünya şöhrətli Bulbülün 100 illik yubileyinin Moskvada və Tbilisidə və Ankarada, məşhur bəstəkar Qara Qarayevin 80 illik yubileyinin Moskvada və Parisdə , görkəmli müğənni R.Behbudovun 80 illik yubileyinin Moskvada, türk xalqlarının Ana kitabı olan "Kitabi-Dədə Qorqud" dastanının 1300 və böyük ədibimiz M. C. Paşayevin 100 yubileyinin Parisdə- YUNESKO-nun iqamətgahında yüksək səviyyədə qeyd olunması və illərdə həyata keçirilən digər tədbirlər müstəqil Azərbaycanı dünyaya tanıtmışdır (Məmmədov, 2010). Azərbayca Respublikasının Prezidenti cənab İlham Əliyevin 2021- ci ilin Nizami ili və 2023 ilin Heydər Əliyev elan etməsi də bu qəbildən olan tədbirlər planına daxildir. Beləliklə az bir zamanda çox böyük işlər görülmüşdür.Məhz buna görə də müstəqil Azərbaycan dövlətinin beynəlxalq təşkilatlarla əlaqələrini öyrənmək həm yaxın keçmişimizin bu dövrünün təhlilini artırmaq, tarixi təcrübəsini öyrənmək, həm də müasirlik baxımından çox əhəmiyyətlidir. Qeyd etmək lazımdır ki, son illər Azərbaycanın müxtəlif sahələrdə beynəlxalq əlaqələri ilə əlaqədar kitablar və dövrü mətbuat səhifələrində çoxlu sayda məqalələr dərc olunmuşdur. Kitabxana işi sahəsində beynəlxalq əməkdaşlıq istənilən dövlətin beynəlxalq əlaqəlrinin ayrılmaz hissəsidir. Tarixən bu proses kitabxanaların yarandığı ilk dövrdən başlayıb,

bütövlükdə insan sivilizasiyasının və eyni zamanda dünya kitabxana işinin inkişaf xüsusiyyətlərindən asılı olaraq bir sıra mərhələlərdən keşmişdir. Kitabxanaların beynəlxalq əlaqələri dünya kitabxana-informasiya ehtiyatlarından qarşılıqlı istifadəni təmin edən vacib kitabxana-informasiya xidmətidir. Kitabxanaların beynəlxalq əlaqələri XIX əsrin axırlarında meydana gəlmiş və iri elmi kitabxanaların dünya kitabxanaları ilə qarşılıqlı sənəd-informasiya əlaqələrinin təşkilində mühum rol oynamışdır

Azərbaycanda sovet tipli kitabxanaların yarandığı gündən kitabxanaların beynəlxalq əlaqələrinə səmərəli bir iş metodu kimi yüksək qiymət verilmişdir. Həmin dövrdə respublikamızda kitabxana işinin mərkəzində duran və bir çox kitabxanaların fəaliyyətinə rəhbərlik edən əsas mərkəz Azərbaycan Dövlət Kitabxanası olmuşdur. Azərbaycan Dövlət kitabxanası yüksək ixtisaslı oxucuların, alimlərin, elmi-tədqiqat müəssisələrinin işçilərinin kitaba xüsusi ilə xarici ədəbiyyata olan tələbatını ödəyə bilmədiyindən xarici ölkə kitabxanaları ilə beynəlxalq kitab mübadiləsinin təşkilinə böyük ehtiyac olunmaqda idi. Kitabxana bu sahədə öz fəaliyyətini genişləndirməyə çalışsa da 20-30-cu illərdə bu işi qaydaya salmaq o qədər də asan olmamışdır. Respublikamızda kitabxanaların beynəlxalq əlaqələrinin qaydaya düşməsi 1950-ci illərdən sonra mümkün olmuşdur. Azərbaycanda bu işlə əsasən M. F. Axundov adına Dövlət Kitabxanası və Azərbaycan Milli Elmlər Akademiyasının elmi kitabxanası məşğul olmuşdur. Dünya ölkələrinin təcrübələri göstərir ki, beynəlxalq abonementlə məşğul olan kitabxanalar əsasən aşağıdakı funksiyaları yerinə yeirirlər:

-oxucu sorğularına əsasən xarici ölkələrdən kitab alırlar;

-xarici ölkə kitabxanalarından daxil olan sifarişləri yerinə yetirirlər;

-dünyada nəşr olunan çap məhsulları ilə müntəzəm tanış olur və onları öyrənirlər;

-ayrı-ayrı xarici kitabxanalarla beynəlxalq kitab mübadiləsi və beynəlxalq kitabxanalararası abonement üzrə müqavilə bağlayırlar;

-beynəlxalq abonement üzrə işi müntəzəm təhlil edirlər;

-alınan və göndərilən nəşrlərin uçotunu aparırlar.

Beynəlxalq kitabxanalararası əlaqələrin iki növü mövcuddur: 1) beynəlxalq kitab mübadiləsi (BKM); 2) beynəlxalq kitabxanalararası abonement (BKA). BKM ölkələr arasında əməkdaşlığın mühüm tərkib hissəsi olub aşağıdakı vəzifələri yerinə yetirir:

1. Xarici ölkələrin ictimai-siyasi, mədəni-maarif, elmi-texniki və iqtisadi inkişafını əks etdirən qiymətli nəşrlərin alınması;

2. Ölkəmizin sosial, siyasi, elmi-texniki, iqtisadi və mədəni fəaliyyətini əks etdirən kitabların ünvanlı şəkildə xarici ölkə kitabxanalarına göndərilməsi

Azərbaycanda beynəlxalq kitab mübadiləsinə ilk dəfə Milli Elmlər Akademiyasının elmi kitabxanası 1956-cı ildən başlamışdır. Artıq 1960-cı ildə kitabxana 130, 1975-ci ildə isə 530 xarici ölkə müəssisələri ilə əməkdaşlıq etmişdir. Əsaslı kitabxana müxtəlif ölkələrlə əlaqə saxlamışdır: Sosialist ölkələri, inkişaf etməkdə olan ölkələr, kapitalist ölkələr. Bu üç qrup ölkələrlə müxtəlif formada əlaqə saxlanılırdı. Kapitalist ölkələri ilə kitab mübadiləsində ekvivalentin aşağıdakı formalarına əməl olunurdu: kitaba qarşı kitab, jurnal üçün jurnal, səhifəyə qarşı səhifə və s. Sosialist ölkələri ilə mübadilədə ekvivalentin qanunlarına bir o qədər də əməl olunmurdu. İnkişaf etməkdə olan ölkələrə isə təmənnasız yardım göstərilirdi. Kitabxana Şərq ölkələri ilə daha çox əlaqələr qurmuşdur. Belə ki, 1970-1985-ci illərdə kitabxananın Şərq ölkələrindən olan tərəfdaşların sayı 122-ə çatmışdır. 1990-cı ildə kitabxana dünyanın 53 ölkəsinin 655 müəssisəsi ilə əlaqə saxlamışdır.

Azərbaycanda beynəlxalq kitab mübadiləsinin təşkilində M. F. Axundov adına Dövlət Kitabxanasının da böyük rolu olmuşdur. Dövlət Kitabxanasında bu xidmət növü ilə Xarici Ədəbiyyat şöbəsi məşğul olur. Hazırda müstəqil qurum olan Xarici Ədəbiyyat şöbəsi 1965-ci ilə qədər Komplektləşdirmə şöbəsinin nəzdində fəaliyyət göstərmişdir. 1965-ci ilə qədər şöbənin fondunda 130012 nüsxə ədəbiyyat olmuşdur. Hazırda isə fondda olan ədəbiyyatın sayı 304.000 nüsxədən çoxdur. Burada 40-a yaxın dildə kitab, qəzet, jurnal, mikrofilm, mikrofiş və s. toplanmışdır. Şöbədə BKM-nin səviyyəsini yüksəltmək üçün 1978-ci ildə ehtiyat fondu yaradılmışdır. Bu fondun tərkibi xarici təşkilatların sorğuları nəzərə alaraq komplektləşdirilir. Eyni zamanda ehtiyat fonduna daxil olan sənədlərin vaxtaşırı siyahısı tərtib edilərək xarici tərəfdaşlara göndərilir.

Xarici Ədəbiyyat şöbəsi 1967-ci ildə dünyanın 19 ölkəsinin 22 kitabxanası ilə əlaqə saxlamış, onlara 302 nüsxə kitab, 242 nüsxə dövrü və ardı davam edən nəşrlər göndərilmişdir. Şöbə 1981-1990-cı illərdə BKM vasitəsi ilə xarici ölkələrdən 10952 nüsxə ədəbiyyat almış və onlara 15000 nüsxədən çox müxtəlif çap məhsulu göndərmişdir. Hazırda kitabxana bu xidmət növünü müvəffəqiyyətlə davam etdirir.

Respublikamız müstəqillik əldə etdikdən sonra xarici ölkələrlə aparılan beynəlxalq kitab mübadiləsinə və BKAA təşkilinə ehtiyac daha da artmış və bu mühüm işin təşkili üçün daha böyük imkanlar olmuşdur. Keçmiş Sovetlər dövründə beynəlxalq əlaqələrə qoyulan qadağaların aradan qalxması, müstəqil Azərbaycan dövlətinin dünyanın bütün dövlətləri ilə diplomatik əlaqələr yaratması bu işin inki şafına böyük zəmin yaratmışdır. Hazırda Azərbaycan kitabxanalarının

qarşısında duran əsas vəzifə beynəlxalq kitab mübadiləsi və BKAA abonementin təşkilini dünya standartları səviyyəsində qurmaqdır.

Məlum olduğn kimi "Kitabxana işi haqqıda" Azərbaycan Respublikasının Qanuna müvafiq olaraq M.F.Axundov adına Dövlət Kitabxanasına Milli Kitabxana statusu verilmiş (Tahirov, 2011) və hazirda da BKM-yə metodik rəhbərlik sahəsində təşkilati-metodiki işləri həyata keçirməkdədir. Kitabxanaların təcrübələrində mübadilənin müxtəlif şərtləri mövcuddur (Kazymi, 2011). Informatsionnaya inzheneriya. Baku: Bakinskiy gosudarstvennyy izdatel'skiy dom. un-ta.Bu şərtlərə görə mübadilə edilən nəşrlərin qiyməti də nəzərə alınmalıdır. Keçmiş SSRİ-də sənədlərin qiyməti çox ucuz olduğundan mübadilədə pul vahidinin əsas götürülməsi tövsiyyə olunmurdu. Hazırda respublikamızın bazar iqtisadiyyatına keçməsi ilə əlaqədar olaraq sənədlərin qiyməti xeyli artmışdır. Buna görə də beynəlxalq kitab mübadiləsində nəşrlərin qiyməti dönər valyuta kursları baxımından mübadilənin əsas göstəricilərindən birini təşkil etməlidir.

BKM dinamik bir prosesdir, ona daimi nəzarət olunmalı və bağlanmış müqaviləyə vaxtında əməl edilməlidir. BKM təşkil edən kitabxanalarda mübadilə fondu yaradılmalıdır. Buraya son illərdə daha çox soruşulan kitablar, elmi əsərlər, şeirlər toplusu, dövrü və ardı davam edən nəşrlərin daxil edilməsi tövsiyyə olunur. BKM üçün ədəbiyyat müəyyənləşdirilərkən xarici əlaqələr təşkilatın cari və potensial imkanları proqnozlaşdırılmalı, həmçinin yeni müqavilələri yerinə yetirmək üçün kitab, dövrü və ardı davam edən nəşrlərin ehtiyatını nəzərə almaq lazımdır. BKM təşkil edən kitabxanalar ölkə nəşrlərinin siyahısını tərtib edib xarici kitabxanalara təklif etməklə yanaşı, respublika nəşriyyatlarının tematik planlarını, ali məktəblərin prospektlərini, kitab kataloqlarını, "mətbuat yayımı" vasitəsilə yayılan qəzet və jurnal məhsullarını xarici təşkilatlara göndərməlidirlər. Tələb olunan nəşrlərin xaricə göndərilməsi qadağandırsa, dərhal xarici həmkarlara mövcud ədəbiyyatın BKM vasitəsilə göndərilməsinin qeyri-mümkünlüyü haqqında məlumat verilməlidir. Bununla əlaqədar olaraq xaricə göndərilməsi mümkün olan nəşrlərin ilk kompleks təsnifatının yaradılması məqsədəuyğundur. Kitabxanalarda beynəlxalq kitab mübadiləsi vasitəsilə alınan nəşrlərin uçotunun aparılmasının da mühüm əhəmiyyəti vardır. Belə ki, kitabxanalar xaricə göndərilən və alınan sənədlərin növlərini və sayını dəqiq hesablamalı, uçotunu aparmalıdırlar. Kitabxanaların beynəlxalq əlaqələrinin ikinci mühüm növü beynəlxalq kitabxanalararası abonement (BKAA) hesab olunur. Respublikamızda BKAA-nın mərkəzi M. F. Axundov adına Azərbaycan Milli Kitabxanasıdır. Kitabxana 1965-ci ildən BKAA işinə başlamışdır. Artıq 1990-cı ildə kitabxana 25 ölkənin 70 təşkilatı ilə BKAA vasitəsi ilə əlaqə saxlamışdır. Hazırda Milli Kitabxana beş nüfuzlu beynəlxalq təşkilatın üzvüdür. Milli Kitabxana

bu təşkilatların bütün beynəlxalq tədbirlərində yaxından iştirak edir. Milli Kitabxananın üzv olduğu beynəlxalq təşkilatlar:

-CENL(Avropa Milli Kitabxanalar Konfransı)

-İFLA(Kitabxana Assosiasiya və Təşkilatlarının Beynəlxalq Federasiyası)

-LAE(Avrasiya Kitabxanaçılıq Assambleyası)

-Türkdilli ölkələrin Milli Kitabxana direktorları şurası

-Avrasiya Kitabxanaçılar Birliyi

Milli Kitabxana CENL-ə üzv olduqdan sonra onun əlaqələri daha da genişlənmiş, keçirdiyi tədbirlərdə fəal iştirak etməklə öz fəaliyyətini modernləşdirməkdə onun tövsiyələrindən istifadə edilmişdir. 2008-ci ildə Milli Kitabxananın əməkdaşları Niderlandın Haaqa şəhərində "Avropa Elektron Kitabxanası"na yeni üzvlərin qəbulunu nəzərdə tutan "FUMAQABA" layihəsinin təqdimat mərasiminə həsr olunmuş toplantıdan iştirak etmişlər. Bu toplantıda Azərbaycan Milli Kitabxanasından başqa AEK-na yeni qəbul olunacaq daha 7 ölkənin (Albaniya, Ukrayna, Gürcüstan, Moldova, Makedoniya və b.) milli kitabxanalarının rəhbərləri və nümayəndələri, müşahidəçi qismində isə Rusiya və Türkiyə Milli Kitabxanalarının nümayəndələri iştirak edirdilər. Azərbaycan Milli Kitabxanasının bu layihədə iştirakı barədə ilkin razılıq 2007-ci ilin fevralında Riqada keçirilən beynəlxalq elmi konfrans zamanı əldə olunmuşdur və həmin ilin sentyabrında CENL-in Helsinkidə keçirilən illik toplantısında müvafiq qərar qəbul edilmişdir. FUMAGABA layihəsi-müxtəlif Avropa ölkələrinin mədəniyyətlərinə girişi təmin edən, Milli Kitabxanaların zəngin fondunu və mədəni irsini dünya ictimaiyyətinə açmaq missiyasını həyata keçirməyi nəzərdə tutan bir layihədir.

Azərbaycan Milli Kitabxanasının bu layihədə iştirakı Azərbaycan oxucularının Avropanın milli kiabxanalarının xidmətindən birbaşa istifadə etməsinə və eləcə də Avropa Milli kitabxanalarının oxucularının Milli Kitabxananın xidmətlərindən istifadəsinə imkan yaradır. Beləliklə, əsrlər boyu yaradılmış, kitabxanalar tərəfindən mühafizə edilib, ictimai istifadəyə təqdim edilmiş Azərbaycanın sənəd kütləsi dünya müstəvisində digər ölkələrin xalqlarına təqdim edilir.

Kitabxananın CENL-lə əlaqələrinin möhkəmlənməsində yeni mərhələ 2013-cü ildən başlayır. Belə ki, Azərbaycan Milli Kitabxanasının 90 illik yubileyi münasibəti ilə 2013-cü il 22-25 sentyabr tarixində Bakıda CENL-in 27-ci illik görüşü keçirilmişdir. Tədbirdə Fransa, Almaniya, Polşa, Estoniya, Ukrayna və s. 41 Avropa ölkəsi Milli Kitabxanalarının rəhbərləri iştirak etmiş, görüşdə Milli Kitabxanalarda qarşıda duran prioritet məsələlərdən danışılmış, Milli Kitabxanaların

fəaliyyətinin optimallaşdırılmasına dair maraqlı təkliflər səslənmiş, yeni layihələr təqdim edilmişdir. Sonrakı illərdə ənənəyə sadiq qalaraq 2014-cü ildə 22 ölkənin iştirakı ilə CENL-in Rusiya Federasiyasının Moskva şəhərində 28-ci illik toplantısı, 2015-ci ildə İsveçrənin paytaxtı Bern şəhərində 36 Avropa ölkəsinin Milli Kitabxana direktorlarının iştirakı ilə 29-cu toplantı, 2016-cı ildə isə Avstriyanın paytaxtı Vyana şəhərində CENL beynəlxalq təşkilatının 30-cu illik ümumi toplantısı keçirilmişdir. Təbii ki, bu görüşlərin keçirilməsi həm ölkələr arasında elmi, tarixi, mədəni və ədəbi irsin təbliğində, Milli Kitabxanaların birgə fəaliyyətinin və gələcəkdə birgə layihələrin həyata keçirilməsində, qabaqcıl dünya təcrübəsinin kitabxanalarda tədbiqində böyük əhəmiyyət kəsb edir.

Azərbaycan Milli Kitabxanasının beynəlxalq əməkdaşlığı tarixində İFLA (Kitabxanaçılıq Assosiasiyaları və İdarələrinin Beynəlxalq Federasiyası) ilə əlaqələr xüsusi yer tutur. İFLA-nın əsası 1927-ci ildə Beynəlxalq Kitabxana və Biblioqrafiya Komitəsi adlı qeyri-hökumət təşkilatı kimi qoyulmuş və 1929-cu ilədək başa çatdırılmışdır. 1947-ci ildə YUNESKO ilə İFLA arasında qarşılıqlı tanıma haqqında müqavilə imzalanmışdır. İFLA qeyri-hökumət təşkilatı olub, məqsədi kitabxanaların beynəlxalq əməkdaşlığını möhkəmləndirmək və bütün dünyada kitabxana-informasiya xidmətinin səviyyəsinin yüksəldilməsindən, bu sahədə aparılan elmi-tədqiqat işlərini dəstəkləməkdən, özəl, ictimai və dövlət sektorunda kitabxana-informasiya xidmətini daha keyfiyyətli təmin etmək imkanlarını dəyərləndirmək və əhəmiyyətini təbliğ etməkdən ibarətdir. 1971-ci ildə təşkilatın Niderlandda nizamnaməsi qəbul olunmuşdur. Dünya kitabxana birliyinin ən mötəbər təşkilatı olan İFLA-nın baş ofisi Haaqada yerləşir. Dünyanın 150 ölkəsinin 1600 üzvünü birləşdirir. Dünyada kitabxana işini əlaqələndirən, bu sahənin inkişafında böyük xidmətləri olan İFLA hər il illik konfrans keçirir. Dünyanın demək olar ki, bütün ölkələrinin kitabxana təşkilatlarının və informasiya xidməti ilə məşğul olan bir sıra digər qurumların iştirakı ilə keçirilən bu forum hər il dünyanın bir ölkəsində keçirilir və burada həmin fəaliyyət sahəsinin ən aktual məsələləri müzakirə edilir. Azərbaycan Milli Kitabxanası XX əsrin 90-cı illərindən etibarən İFLA-nın üzvüdür. AMK bu təşkilatın keçirdiyi beynəlxalq elmi konfranslarda, simpoziumlarda, həyata keçirdikləri bir sıra layihələrdə iştirak edir. 1995-ci ildə Türkiyənin İstanbul şəhərində keçirilən İFLA-nın "Gələcəyin Kitabxanaları" adlı 61-ci konfransında Milli Kitabxananın nümayəndə heyəti iştirak etmişdir. Bu konfransda kitabxanaların yenidənqurulması və informasiya texnologiyalarının tədbiqi, müştərək milli və beynəlxalq informasiya şəbəkələrinin qurulması, kitabxana sənədlərinin gələcəyi, kitabxa nalar və ictimai təhsil, peşəkar ünsiyyət və başqa məsələlər ətrafında müzakirələr baş tutmuşdur. Təbii ki, belə konfranslarda iştirak Milli Kitabxananın da fəaliyyətində mühüm

islahatların aparılmasına öz təsirini göstərmişdir. Sonrakı illərdə də Azərbaycan nümayəndə heyəti İFLA-nın illik konfranslarında iştirak etmişdir. Lakin araşdırma nəticəsində müəyyən edilmişdir ki, bir sıra obyektiv və subyektiv səbəblərdən Milli Kitabxananın digər beynəlxalq qurumlarla işindən fərqli olaraq İFLA ilə əlaqələri müntəzəm və operativ xarakter daşımamış və bu əlaqələrin bərpa edilməsi və inkişafına böyük ehtiyac vardır.

Milli Kitabxananın beynəlxalq əlaqlər sistemində İqtisadi Əməkdaşlıq Təşklatı (İƏT-Economic Cooperation Organization-ECO) xüsusi yer tutur. 1985-ci ildə İran, Pakistan və Türkiyə tərəfindən yaradılan qurum üzv ölkələrin Xarici İşlər Nazirləri Şurasından ibarətdir. Şuta təşkilatın fəaliyyət siyasətini, Regional Planlaşdırma Şurasını, Müavinlər Şurasını müəyyən edir. Mənzil-qərargahı Tehranda yerləşən Müavinlər Şurası İƏT ölkələri səfirlərindən ibarətdir. İƏT-in kənd təsərrüfatı sahəsi, sənaye əməkdaşlığı; nəqliyyat və rabitə; infrastruktur və ictimai işlər; elm, təhsil və mədəniyyət; energetika; narkotik maddələrinin yayılmaması məsələləri üzrə fəaliyyət göstərən 8 texniki komitəsi var. Komitələr ildə bir dəfə toplanır. Azərbaycan Respublikası İƏT (EKO) Nazirlər Şurasının 1992-ci ilin 28 noyabr tarixində İslamabadda keçirilmiş növbədənkənar iclası zamanı təşkilatın üzvlüyünə qəbul olunmuşdur. Həmin gün Azərbaycanla yanaşı daha 5 digər ölkə(Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Türkmənistan, Tacikistan) təşkilata üzvlüyə qəbul olunmuşdur. Sonralar İƏT-in Mədəniyyət İnstitutunun təşkilatçılığı ilə quruma üzv olan ölkələrin mədəni irsinin, adət-ənənələrinin təbliği, mədəniyyət müəssisələrinin qarşılıqlı fəaliyyəti məqsədilə konfranslar təşkil edilirdi. Azərbaycan Milli Kitabxanası da bu konfranslarda fəal iştirak edirdi. 2007-ci ildə noyabr ayının 19-20-də Tehran şəhərində İƏT-ə daxil olan ölkələrin Milli Kitabxana direktorlarının birinci konfransı keçirilmiş, Milli Kitabxana bu konfransda yaxından iştirak etmişdir. Konfrans İƏT-in Mədəniyyət İnstitutunun və İran Milli Kitabxanasının təşkilatçılığı ilə keçirilmişdir. Burada əsasən təşkilati məsələlər müzakirə edilmiş, İƏT-ə daxil olan ölkələrin Milli Kitabxanalarının direktorlarının İctimai Birliyinin yaradılması barədə qərar qəbul olunmuşdur. Bu beynəlxalq təşkilata İran, Türkiyə, Azərbaycan, Pakistan, Tacikistan, Qırğızıstan, Əfqanıstan, Türkmənistan və Özbəkistan Milli Kitabxanalarının direktorları daxil olmuşlar. Növbəti dəfə 2009-cu ildə Bakıda Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi və M. F. Axundov adına Azərbaycan Milli Kitabxanası tərəfindən "Bakı-İslam Mədəniyyətinin paytaxtı-2009" tədbirləri çərçivəsində İƏT-ə üzv ölkələrin Milli Kitabxanalarının direktorları Şurasının ikinci konfransı keçirilmişdir. Konfransın əsas məqsədi qloballaşan dünyada Milli Kitabxanaların öz işlərini informasiya cəmiyyətinin tələblərinə uyğun qurması problemlərinin

müzakirəsi və qarşılıqlı əlaqələrin inkişaf etdirilməsi olmuşdur. İƏT-ə üzv ölkələrin Milli Kitabxanalarının Direktorlar Şurasının vahid portalının yaradılması, türk xalqlarının görkəmli şəxsiyyətlərinin yubileylərinin islam dünyasında qeyd olunması və Milli Kitabxanalar ilə bağlı müxtəlif çıxışlar dinlənilmiş və müzakirələr edilmişdir. Bakı konfransında İƏT-ə üzv ölkələrin Milli Kitabxanalarının Direktorlar Şurasının nizamnaməsi qəbul olunmuş, Azərbaycan Milli Kitabxanasının direktoru, professor Kərim Tahirov konfransın sədri, İran İslam Respublikasının Milli Kitabxana və Arxiv Təşkilatının direktoru, Prezidentin Mədəniyyət məsələləri üzrə müşaviri Əli Əkbər Aşari isə Baş direktoru seçilmişlər.

"Bakı-İslam Mədəniyyətinin paytaxtı-2009" tədbirlər çərçivəsində İƏT-ə üzv ölkələrin Milli Kitabxanalarının saytlarına birbaşa çıxışı təmin edən "İqtisadi Əməkdaşlıq Təşkilatına üzv ölkələrin Milli Kitabxanaları" adlı səhifə hazırlanmışdır. 2010-cu ildə Türkiyənin paytaxtı Ankara şəhərində İƏT-ə üzv olan ölkələrin milli kitabxana direktorlarının üçüncü toplantısı keçirilmişdir. Toplantıda Türkiyə, Azərbaycan, İran, Qazaxıstan, Türkmənistan, Özbəkistan, Pakistan və Əfqanıstan Milli Kitabxanalarının direktorları və İƏT Mədəniyyət İnstitutunun nümayəndəsi - iştirak edirdi. Konfrans İƏT ölkələrinin milli kitabxanalarının birgə əməkdaşlığına və bu əməkdaşlıq şəraitində ortaq layihələrin həyata keçirilməsinə, rəqəmsal kitabxanaların yaradılmasına və digər məsələlərə həsr olunmuşdur. Azərbaycan Milli Kitabxanasının sıx əməkdaşlıq etdiyi qurumlardan biri də BAE (AKA- Avrasiya Kitabxanalar Assambleyası)- dir.

Hələ keçmiş SSRİ dövründə kitabxana işi sahəsində yaradılan birliklər, şuralar, qarşıya çıxan problemlərin həllində, təcrübə mübadiləsində, kitabxanaşünaslıq elminin inkişafında bu qurum böyük rol oynamışdır. Belə birliklər, o cümlədən Ümumittifaq kitabxana şurası, sahəvi kitabxana şuraları və komissiyaları müxtəlif tip kitabxanaların, akademik, ali məktəb, elmi texniki və digər kitabxanaların ixtisaslı mütəxəssislərini bir araya toplayırdı (Kazımi, 2017). Bu da kitabxanaların ümumi proqram çərçivəsində fəaliyyət göstərməsinə, əldə olunan təcrübənin yayılmasına böyük köməklik göstərirdi. Lakin SSRİ dağıldıqdan sonra hər sahədə olduğu kimi kitabxana sahəsində olan bu birliklər öz fəaliyyətini dayandırdı. Müstəqil dövlət quruculuğu yoluna qədəm qoymuş ölkələr ümumbəşəri dəyərlərə söykənən demokratik hüquqi və dünyəvi Dövlət yaratmaq arzularını reallaşdırmaq istiqamətində addımlar atmağa başladılar. Sürətlə başlanan demokratikləşmə prosesləri, cəmiyyətin düzgün inkişafı və mədəniyyətin yeniləşməsini tələb edirdi. Bu kitabxana quruculuğunda da özünü tam büruzə verdi; köhnə əlaqələri pozulması, yenilərin hələ yaradılmaması kitabxana sahəsində xüsusilə yeni ədəbiyyatın komplektləşdirilməsində çətinliklərin əmələ gəlməsi və s. Digər tərəfdən oxucuya xidmətdə

informasiya çatışmazlığı kitabxanaların modernləşdirilməsini, yeni xidmət növlərinin təqdim edilməsini tələb edirdi. Bu sahədə əldə olunan bəzi qabaqcıl kitabxanaların təcrübəsini öyrənmək, problemlərin həllini birgə araşdırmaq məqsədilə kitabxanaların bir araya gəlməsinə, bir təşkilat ətrafında toplanmasına ehtiyac duyulurdu. Yeni şəraitə uyğun olaraq, respublikamızda kitabxanaların beynəlxalq əlaqələrin təşkili vahid əlaqəli sistem əsasında həyata keçirilməlidir. Bu da işin vahid təşkilati və metodiki prinsip əsasında qurmağa imkan verir.

Respublikamızın tam müstəqilliyə və bazar iqtisadiyyatına keçməsi ilə əlaqədar xarici ölkə kitabxanaları ilə birbaşa əlaqə respublikamızın iri sahəvi kitabxanaları tərəfindən həyata keçirilə bilər (Oqlu, 2021). Bu istiqamətdə rəsmi təlimatın işlənməsinə ciddi ehtiyac duyulur. Respublikamızın bütün kitabxanaları beynəlxalq abonementlə məşğul ola bilməz. Bunu nəzərə alaraq respublika kitaxanaları xarici ölkə kitabxanalarının sorğularının yerinə yetirilməsində qarşılıqlı surətdə fəaliyyət göstərməli və burada əsas rolu BKAA-nın əlaqələndirmə mərkəzi yerinə yetirməlidir.

BKAA-nın əlaqələndirmə mərkəzi aşağıdakı vəzifələri həyata keçirməlidir:

-xarici ölkə kitabxanaları tərəfindən verilən sorğuları həyata keçirmək;

-beynəlxalq təşkilatlarda və tədbirlərdə respublika kitabxanalarını BKAA üzrə təmsil etmək;

-BKAA ilə məşğul olan kitabxanaların işinə nəzarət etmək.

Respublikamızın hər bir vətəndaşı, idarə və müəssisə BKAA xidmətindən istifadə və lazımi xarici ədəbiyyata sifariş verə bilər.

Axtarılan ədəbiyyat ölkə kitabxanalarında olmadıqda sorğular əlaqədar xarici ölkə kitabxanalarına göndərilir. Ona görə də həmin sifarişləri əvvəlcə toplu kataloqda axtarmaq tələb olunur. Belə bir kataloq isə respublikamızda hələlik yaradılmamışdır. Xarici ölkə kitabxanalarına sifariş göndərərkən aşağıdakıları nəzərə almaq lazımdır:

1) xarici ölkə ilə diplomatik əməkdaşlığın olması. Diplomatik əlaqələri olmayan ölkələrə sifariş göndərmək məqsədəuyğun deyil;

2) yuxarı təşkilatların zəmanəti (Nazirlər Kabineti)

3) kitabxana və fond haqqında məlumat;

4) soruşulan ədəbiyyatın nəşr yeri;

5) xarici ölkə kitabxanalarında beynəlxalq abonementdən istifadə qaydaları;

6) mövcud kitabxanaların iş təcrübəsi və s.

Xarici ölkə kitabxanalarından alınan sifarişlərin yerinə yetirilməsinin vaxt norması aşağıdakı kimi tövsiyə olunur:

a) kitab, dövri nəşrlər, not, texniki ədəbiyyatın xüsusi növləri-3-5gün

b) əlavə biblioqrafik dəqiqləşdirmə tələb edən sənədlər-10-15gün

BKAA-nın təşkilində planlaşdırma, uçot və hesabat da mühüm əhəmiyyət kəsb edir. Statistik məlumatlar bu işin təşkilində əsas rol oynayır. Burada işin kəmiyyət və keyfiyyət göstəricilərini mütləq nəzərə almaq lazımdır. Kəmiyyət göstəricilərinə daxildir:

-beynəlxalq abonementlə məşğul olan ölkələrin sayı;

-sifarişçi kitabxanaların sayı;

-alınan və göndərilən sorğuların sayı;

-alınan və göndərilən nəşrlərin orjinallarının və onların surətlərinin sayı

Kitabxanalarda beynəlxalq abonement üzrə işi planlaşdırarkən əvvəlki illərin iş təcrübələri təhlil edilməlidir. Kitabxanada ilin yekunu çıxarılarkən beynəlxalq abonementin bütün göstəriciləri hesablanır və alınan rəqəmlər əvvəlki illərlə müqayisə edilir. Hesabat iki hissədən ibarət olmalıdır: məlumat və statistik hesabatlar.

**Nəticə**

Hazırda respublikamızda baş verən demokratik dəyişikliklər ölkə kitabxanalarının beynəlxalq əlaqələrinə geniş şərait yaradıb (Kazimi, 2021). Bu əlaqələrin inkişafında beynəlxalq kitabxana təşkilatlarının (Kitabxana Assosiyasiyaların Beynəlxalq Federasiyası-İFLA, Avrasiya Kitabxanaçılıq Assambleyası-BAE və s.) gücündən məharətlə istifadə edilməlidir. 1999-cu ildən respublikamızda fəaliyyət göstərən "Azərbaycan kitabxanaçılar cəmiyyəti" və "Azərbaycan kitabxana işinin inkişaf assosiyasiyası" da kitabxanaların beynəlxalq əlaqələrin inkişafında mühüm rol oynamalıdırlar. Azərbaycanda beynəlxalq kitabxanalararası əlaqələrin araşdırılması göstərir ki, bu xidmət növü dərindən öyrənilməli və elmi əsaslarla tədqiq edilərək aşağıdakı istiqamətdə inkişaf etdirilməlidir:

1) Azərbaycan Respublikasında informasiya məhsullarının yaradılması, mühafizəsi, istifadəsi və mübadiləsi sahəsində qəbul edilən bir sıra qanunlara müvafiq (Kitabxana işi haqqında, Nəşriyyat işi haqqında, informasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi və s.) bazar iqtisadiyyatı şəraitində sənəd informasiya verilişinin və mübadiləsinin vacib kanallarından biri kimi beynəlxalq kitabxanalararası əlaqələrinin hüquqi, təşkilati və iqtisadi mexanizminin işlənməsi, əsasnamələrin yaradılması;

2) Beynəlxalq kitabxana informasiya təşkilatları ilə əlaqlərin genişləndirilməsi;

3) Hazırda sənədləşdirilmiş informasiya ehtiyatlarının artımı ilə əlaqədar olaraq respublika elmi kitabxanalarının beynəlxalq əlaqələrini möhkəmləndirmək və fondların dolğunluğunu BKM və BKAA vasitəsilə qismən təmin etmək;

4) Beynəlxalq kitabxanalararası əlaqələrin nəzəri təcrübi və metodoloji əsasları yenidən işlənməli və xaricə göndərilə biləcək nəşrlərin ilk kompleks təsnifatı yaradılmalı. Bu təsnifat əsasında beynəlxalq abonementin milli dövlət standartı hazırlanmalı;

5) Beynəlxalq əməkdaşlıq proqramı çərçivəsində layihələrdə iştirak etmək;

6) Respublika elmi kitabxanalarının profilinə uyğun olaraq onların beynəlxalq abonement üzrə mərkəzləşdirilmiş və qarşılıqlı təminatı əsasında yeni müqavilələrin bağlanması;

7) Beynəlxalq kitabxanalararası əlaqələrin daha da inkişafı üçün respublika elmi kitabxanalarının lokal kitabxana-kompüter şəbəkəsinin yaradılması və həmin şəbəkənin internet sisteminə qoşulması. Göstərilən problemlərin təcrübi həlli ölkənin kitabxana-informasiya siyasətinin inkişafına və kitabxanalararın beynəlxalq əlaqələrin təkmilləşdirilməsinə əhəmiyyətli dərəcədə şərait yarada bilər.

**Ədəbiyyat**

Kazımi, P. F. (2017). Sosyal ve Kültürel Ortamın Oluşmasında Kitap ve Kütüphanelerin Rolü. *Türk Kütüphaneciliği*, *31*(2), 245-250.

Kazimi, P. F. O. (2021). Democratic countries and ways of influencing the nature of information.*Technium Social Science Journal*, 22, 847-851.

Kazymi, P. F. (2011). *Informatsionnaya inzheneriya*. Bakinskiy gosudarstvennyy izdatel'skiy dom. un-ta.

Məmmədov, M.Ə. (2010). Kitabxanaların beynəlxalq əlaqələrində qeyri- hökümət təşkilatların iştirakı. Kitabxanaşünaslıq və informasiya. *Elmi, nəzəri, metodik və təcrübi jurnal*, 3, 51-59.

Oqlu, K. (2021). Dynamic Development of Information Technologies, Organization of Library Services Using Digital Space and Through Social Networks. *Asian Journal of Education and Social Studies*, *16* (4), 27-32.

Tahirov, K. M. F. (2011). Axundov adına Milli Kitabxananin Beynəlxalq əlaqələri. Kitabxanaşünaslıq və informasiya. *Elmi – nəzəri və praktili jurnal*, 1, 32-39.